# Tənqidimizin şairanə ifadəsi "Güzgü günü"ndə



Dekabrın 16-da AYB-nin Natəvan klubunda tanınmış ədəbiyyatşünas alim, professor Rüstəm Kamalın 60 illik yubileyi qeyd olundu. Tədbiri Yazıçılar Birliyinin katibi İlqar Fəhmi açaraq yubilyarın yaradıcılıq məziyyətlərindən ətraflı bəhs etdi. Qeyd etdi ki, müraciət etdiyi mövzuya yeni və maraqlı baxış bucağı, bədii-ezoterik kontekst Rüstəm Kamalın mətnlərini bir araya gətirir, filoloji təhlili esse təxəyyülü ilə birləşdirir.

Filologiya üzrə fəlsəfə doktoru Məti Osmanoğlu dedi: "Rüstəm Kamal obrazın poetik tarixini açıb göstərə-göstərə bədii mətnin başladığı yerə-ruhun, mənəviyyatın tarixinə aparır. Onun filologiyamızda xüsusi yeri var. Rüstəm Kamal çağdaş ədəbi tənqidimizə yeni çalar, yeni nəfəs gətirdi. Onun bu sahədəki uğurları yeni bir mərhələdir. Rüstəmin filoloji təhlilləri həzz, xüsusi estetik zövq mənbəyidir. Onun mətnlərə münasibəti çox sərbəstdir, tənqidimizin poetik ifadəsidir".

Xalq yazıçısı, AYB-nin sədri Anar dedi: "İndiki halda biz mətnlər bolluğu içində yaşayırıq. İş elə gətirib ki, yalnız diqqət çəkən imzanı izləyirsən. Rüstəm bu cür, diqqət çəkən imza sahibidir. Onun Dədə Qorqud, Mirzə Cəlillə bağlı fikirləri çox maraqlıdır və bu münasibət bizi yaxınlaşdırır. Rüstəmi hələ Mingəçevirdə fəaliyyət göstərdiyi vaxtlardan tanıyırdım. İmzasını həmişə izləmişəm. "Azərbaycan" jurnalının 12-ci sayında Ceyhun Hacıbəyli ilə bağlı dərc olunan məqaləsi çox maraqlıdır. Bu kontekstdə Yuxu fonemeni haqqında maraqlı fikirlərini ustalıqla bölüşüb..."

Yubilyarın yaxın günlərdə nəşr olunan "Güzgü günü" kitabının da təqdimat olunduğu tədbirdə akademik, millət vəkili Nizami Cəfərov, "Azərbaycan" jurnalının baş redaktoru İntiqam Qasımzadə, filologiya elmləri doktoru, görkəmli tənqidçi Vaqif Yusifli, professor Abid Tahirli, filologiya üzrə fəlsəfə doktoru, şair Adil Cəmil, eləcə də yubilyarın qələm dostları Ağacəfər Həsənli, Bəsti Əlibəyli, Südabə Ağabalayeva, Rəhilə Soltanqızı və başqaları R.Kamalın simvollarla süslənən elmi və bədii yaradıcılığından söz açdılar.

Sonda Rüstəm Kamal yaradıcılığına verilən dəyərə görə tədbir iştirakçılarına minnətdarlığını bildirdi.

*Sərvaz Hüseynoğlu*

Ədəbiyyat qəzeti.- 2022- ci il.- 17 dekabr.- S. 21.